# Tülkü Həccə Gedir



ALTUN kitab

Abdulla Şaiq

# Tülkü həccə gedir



ALTUN KİTAB

Ш9(2=Аз)0



Tülkü qocalmış idi,
Şikardan qalmış idi.
Həftələrlə qalıb ac,
Dolanırdı yalavac.
Günü olmuşdu qara,
Düşündü, tapdı çara:
Təsbeh aldı əlinə,
Şal bağladı belinə,
Ayaqlarında çarıq,
Başında tirmə sarıq,
Çiynində atlaz əba,
Əlində zorba əsa
Ağlayırdı, gedirdi,
Çölləri seyr edirdi.



Kənd ağzında bir xoruz
Eşələnirdi yalqız.
Gördü ki, tülkü lələ
Girmiş başqa bir şəklə.
Ağlayır, təsbeh çəkir,
Gözündən qan-yaş tökür...
Xoruz durub uzaqdan
Baxdı ona bir zaman.
Dedi: - A tülkü lələ,
Neçin girdin bu şəklə?
Yoxsa sənə, ey baba,
Üz veribdir bir bəla?



Tülkü başın salladı,
Hönkür-hönkür ağladı.
Dedi: - A məstan xoruz,
Gözləri mərcan xoruz!
Qocalmışam, düşmüşəm,
Sizi çox incitmişəm.
Məndən daha qaçmayın,
Dərdlərimi açmayın.
Daha üzüm qaradır,
Qəlbim dolu yaradır.





Gəldilər kəndə yaxın.
Toyuqlar axın-axın
Küçədə dənlənirdi,
Yem tapıb şənlənirdi.
Gördülər tülkü lələ
Giribdir başqa şəklə.
Gedir yol ilə birbaş,
Xoruza olmuş yoldaş.
Birdən qaqqıldaşdılar,
Bu hiyləyə çaşdılar.



Toyuq-xoruzdan biri
Gəldi bir az irəli,
Dedi: - A lovğa tülkü,
Quyruğu darğa tülkü!
Yoxdur səndə mərhəmət,
Bizə verirsən zillət.
Bizi çapır, çalırsan,
Hinə şivən salırsan.
Tülkü başın salladı,
Hönkür-hönkür ağladı:
- Qocalmışam, düşmüşəm,
Sizi çox incitmişəm.
Daha tövbə edirəm,
İndi həccə gedirəm...



Bu işə mat qaldılar,
Tülküyə yan aldılar.
Çaşdılar bu sözlərə,
Qan-yaş doldu gözlərə.
Söylədilər: - Ay lələ,
Qurban bu şirin dilə.
Xasiyyətin dəyişmiş,
Nə gözəl işdir bu iş!
Amandır, tülkü lələ,
Bizi apar özünlə.
Tülkü dedi: - Nə olar,
Gəlin, gəlin, balalar!



Bir xoruz oldu zirək,
Uçdu dama sevincək:
- Quqquluqu, - çəkdi car. -
Olduq bizlər bəxtiyar:
Tülkü olub peşiman,
Tökməyəcək bir də qan.
Kənddə toyuq-cücələr,
Bundan tutunca xəbər,
Bir-birinə baxışdı,
Küyə düşdü, axışdı:
Biri öpür əbasın,
Biri dəmir əsasın,
Biri təsbeh, sarığı,
Biri kirli çarığı.



Tülkü düşmüş irəli,
Arabir dönüb geri
Gizli-gizli baxırdı,
Ağzından su axırdı.
Getdilər bir az daha,
Çatdılar bir səhraya.
Tülkü dayandı, durdu,
Başladı hiylə qurdu.
Dedi: - Ay canım xoruz,
Gözəl məstanım xoruz!
Namaz vaxtıdır, dayan,
Çıx ağaca, ver azan.



M.F. Axun
Azərbayc
Kitab



Xoruz çıxdı, ucadan
Verdi gözəl bir azan.
Tülkü dedi: - Tez durun,
Namaz üçün səf qurun!
Mən keçmişəm ən sona,
Ürəyim dönmüş qana.
Yalvarıram yaradan
Keçsin günahlarımdan.
Peşimanam işimdən,
Bezaram keçmişimdən.
Siz namaza başlayın,
Məni bir ölü sayın.



Deyib oturdu yerə,
Ağladı birdən-birə.
Səflər coşub-daşdılar,
Namaza qalxışdılar.
Oxundu qısa dua,
Əyildilər torpağa.
Tülkü qaldırdı başın,
Atdı möminlik daşın.
Atdı təsbeh, əbanı,
Sarığı, həm əsanı.
Baxdı o yan-bu yana,
Dik atıldı meydana.



Yırğalandı quyruğu,
Boğdu on beş toyuğu...
Duyub o yerdə qalan
Qurtardı tülküdən can.
Uçdu hərə bir yana,
Düzə, çölə, ormana.
Çölü basdı qışqırıq,
Qopdu böyük fısqırıq.
Tülkü işin bitirdi,
Ovlarını gətirdi,
Çıxdı bir göy yamaca,
On gün yedi doyunca.



*Abdulla Şaiq*

# TÜLKÜ HƏCCƏ GEDİR

"Altun klassika" nəşr layihəsinin rəhbəri
*Rafiq İsmayılov*

Nəşriyyatın redaktoru
*Fəxri Uğurlu*

Rəsmlər və dizayn
*Elçin Cabbarov*
*Səidə Eyvazova*

© Altun Kitab
www. altun-kitab.com

CBS mətbəəsində çap olunmuşdur.
Tiraj 500
Qiyməti 2.00 AZN

Azf-254899

"Altun klassika" seriyası azərbaycanlı balaları dünyanın məşhur uşaq yazıçılarının əsərləri ilə tanış edir. Bu seriyadan Qrimm qardaşlarının "Bremen çalğıçıları", Abdulla Şaiqin "Tülkü həccə gedir" və "Tıq-tıq xanım", Hans Xristian Andersenin "Padşahın təzə libası", Astrid Lindqrenin "Damda yaşayan Karlson", Şarl Perronun "Qırmızıpapaq", Mikayıl Müşfiqin "Şəngül, Şüngül, Məngül" və bir çox başqa əsərlər nəşr olunacaq.

"Altun klassika" seriyasından olan kitablar
6-9 yaşlı uşaqlar üçün
nəzərdə tutulmuşdur.



ALTUN KLASSIKA